# "RUHUN DAŞQINI"NDA ÇIRPINANLAR

**Əli Rza Xələflinin "Ruhun daşqını" adlı yeni kitabı şair, telepublisist, Əməkdar jurnalist Avdı Qoşqarın yaradıcılıq yolunun, şair taleyinin özünəməxsus məqamlarının araşdırılmasına həsr olunub. "Ruhun daşqını"ndakı məqalə-esse-araşdırma yazıları Avdı Qoşqarın ədəbi taleyinə nə qədər elmi yanaşmadırsa, bir o qədər də bədii ekskursdur. Əli Rza müəllim bu ekskurs yazını elə bil qanı ilə yazıb. Tərənnüm, tədqiq etdiyi obraz kimi, onun da göylərdən eşidilən səsi mənəvi aləmindən qopan ağrılar təki yandırıb-yaxır adamı. Bu ağrıları müəllif insanlığa ithaf edilən nəğmələr kimi oxuyub. Elə oxuyub ki, bu səsi eşitməmək, eşidib də hay verməmək olmur. Bu səs adamın ruhunu, bütün varlığını titrədir, pərvazlandırır. Bu səs həm də təbii daşqınların, qasırğanın, sunaminin ağzına alıb məhv etdiyi məmləkətlərin dərdi kimi ağırdı, çox ağır... Əli Rza Xələfli elə giriş sözündəcə Avdı Qoşqarın yatmış ruhları oyatmaq, ölü qəlbləri də dirçəltmək gücündə olan "Çıx çəpər dibindən..." şeirini şairin xarakterinin, yaradıcılıq ruhunun işığında təhlil edir. Şeir bütün ideya-mahiyyəti ilə xarakterizə olunur. Elə kitabda yer alan ilk yazı ilə də Avdı Qoşqarın ədəbi taleyinə işıq çilənir. "Ruhun daşqını"nın ideyası, mənəvi ucalığının detalları Avdı Qoşqarın ədəbi obrazının müəllif tərəfindən dəqiq müşahidə olunmuş ştrixləridir...**

*Çıx çəpər dibindən, qaya çatından*
*... Sürünən ruhları silkələ, qaldır...*

Adamın ruhu alışır, odunu söndürmək üçün göyün üzünə çəkilməyi gəlir... Əli Rza şeirin hər sətrini, ifadəsini elə bir təhlil süzgəcindən keçirir ki, onun məna çaları, ideyası, — çılın-çılpaq həqiqətlər səsin və rəngin ecazı ilə göz önündə canlanır. Mənə görə, Avdı Qoşqarın yaradıcılığında zirvə olan bu şeirin təhlili tədqiqatlarda, elmi-nəzəri təhlillərdə gedilmiş yolların, ifadə üslubunun tam əksinədir - yenidir, orijinaldır. Bunu quru söz xatirinə qəbul etməyin, rica edirəm... Siz Əli Rza müəllimin səsinə də qulaq verin: "... Avdı Qoşqar mənəviyyatın parçalanması ilə bağlı mübarizəyə çağırış edir, yoxsa, "Çıx çəpər dibindən..." şeiri necə yarana bilərdi? Yoxsa biz bir çox motivlərinə görə Məmməd Araz şeirinin sonsuz həyəcanla müşayiət olunan emosiyasının davamını bu şeirdə görə bilərdikmi? (Ə.Xələfli öz təhlilində Avdının bu şeirində onun üsyankar səsini 90-cı illərin əvvəllərindəki Məmməd Araz səsini xatırlatdığını ("Yatmış vulkan") diqqətə çəkir). Poetik nəfəsin sahibi M.Araz poeziyasına müqəddəs kitab kimi and içir, onun ruhunu başının üstündə hiss edir: Səninləyəm, qoca vulkan! M.Arazın bu sözləri şairə imkan verib ki, bütövlükdə milləti Vətən, Vətəni millət kimi görsün və bu diri cana, oyaq ruha müraciət edərək ona kimliyini anlatsın:

*Qara kəhər üstə göynəyir yəhər -*
*O yəhər üstündə sən olmalısan,*
*Hay elə yedəkdən quzunu saldır,*
*Millətin sürünən ruhunu qaldır... "*

Əli Rza Xələfli deyir ki: *əgər şair üçün həqiqəti deməyin son ucu varsa, Avdı Qoşqar üçün həqiqəti deməyin son ucu elə bu yerdir. Axı, insan nə qədər çəpər dibində baş girləyə bilər...* Müəllifin bu şeirə təkrarən qayıtması, onun ümumi ideyasından başqa hər sözünə, ifadəsinə fikir bildirməsi "Çıx çəpər dibindən..." şeirinə açıqdan vurulduğunu göstərir. Əli Rza Xələfli də kiməsə, nəyəsə vuruldumu, damarından axan qanını kəsmək olmur...

*"Poeziya yanan dərddir... Şair isə dərdçəkən; yanan yanğıları, dərdləri varlığına çəkənin özü də dərd deyilmi"-* deyir Əli Rza müəllim. Bu, başdan-ayağa, dərdlə, qayğılarla yüklənmiş, qeyrət, vicdan hissilə haqq-ədalət axtarışında olan şairin poetik yaradıcılığının ideya-mahiyyətini açmaq, yerini göstərmək üçün tutarlı ədəbi zəmindir. Və bu zəmini bütün qatlarınacan açmaq, yoğurub bağrımıza yapmaq da müəllifin təbinin, ədəbi təfəkkürünün meyarıdır. Axı onun özünün də şeirlərinin mayasında ictimai ağrılar, insanın taleyi dayanır. O, dərd bilendi, dərdlini duyandı. Onunçün də deyir: *Bəri gəl, mən dərd bilənəm!..*

Ə.Xələfli şairin şeirlərini birbaşa təhlil etmir, buna qədər şeirin yazılmasına şairin hazırlığını, mətləb və məqsədini tanıtım müstəvisinə çıxarır; sərrast, ancaq emosional ruhu çalarlı ritorik suallar qoyur: *Avdı Qoşqar nə istəyir? O, nəyin və kimin uğrunda döyüşür? Birmənalı şəkildə desək, Avdı Qoşqar güzgünü qorumaq missiyasını daşıyır...Yaxşı edir, güzgü sınanda xırdalanır və onun əks etdiyi obyekt çox kiçik görünür...* Səsləndirilən sual-fikirlərdən aydın olur ki, bu zəmin-hazırlığın ardınca şairin üsyanı, ədalətsizliklə barışmazlığı, insanın öz içindən sınması, hansısa məqamlarda özünəinamının sozalması baş verir... *İnsan necə sınır, - məndən soruşun, Necə sınıb düşür, - qüruru bir-bir. Yaxşı ki, gəzəri tabutlar çoxdur, Bu boyda cəsədi tutmazdı qəbir.*

*"Avdı Qoşqarın "İnsan necə sınır..."* şeirinin hələ ilk misralarını oxuyan kimi *fikir alovlanır, düşüncə dağdan-dağa atılır. Yeri-göyü çəkib birləşdirmək istəyir. Və bu iddia deyil, sadəcə poetik ovqatın şimşək gücüdür, qarşısıalınmaz təsir gücüdür...".* Bu təhlillərlə müəllif elə bir qüdrətə, inceliyə varır ki, ixtisasından asılı olmayaraq, hər kəsin içində bir poetik fikir yaranır. Bütün şeirlərin açması belə bir qüdrətdə - hər biri mövzusu, özünün doğurduğu tər-təzə fikirlərin işığında tədqiq olunur. Avdı Qoşqarın mənəvi mühiti, az qala bütün ixtisasların kamil bilicisi kimi, şeirlərində azad, mükəmməl fikir-ideya daşıyıcısı olduğunu göstərir. Şairin yaradıcılığı ümumən zamanın, mühitin içində təhlil olunur. Sözlərimin səmimiyyətinə inanın, bu şeirlərin müəllifi də, onları bədii, publisistik üslubda təhlil edən Əli Rza Xələflinin özü də başdan-başa heyrətdi, dəhşətdi...

Sözü zamanında demək, cəsarətdir, şairin də cəsarəti yaşadığı mühitdəki neqativliyi tənqid və ifşa etməkdir, həm də şairin öz əqidəsinə inamı, sədaqəti işığında, gözün gördüyü haqsızlıqlara, yüksək kürsülərə çatmaq hərislərinə acı-acı gülməkdir. Bu mənada Avdını düşündürən, narahat edən ictimai həyatın problemləri, mənəvi aşınmalar, işğallardı. Bunlar neçə yüzilliklər öncə Füzuli, Nəsimi düşüncəsinin başqa bir formada özünü büruzə verməsidir. Əli Rza Xələfli təsdiq edir ki, Avdı Qoşqarın hələ 80-ci illərdə ədəbi çağırışının səsi-nəfəsi yeni idi, sözü cəsarətli idi. Şairin toxunduğu məsələlər, təhtəlşüur fikirlər şeirinin təkcə öz zamanının deyil, bütün zamanların səsi olduğunu göstərirdi. Avdı Qoşqarın sənət yanğısı, kədərdən, dərddən, az-azacıq da yaşadığı sevincdən boy göstərirdi.

*Qurtardım, axır ki, sonumu gördüm...*
*Qurtardı sonuncu nağıl axşamım,*
*Alışa-alışa, odlana-odlana*
*Sənin yoxluğuna alışdım, ömrüm,*
*Sənin yoxluğunla barışdım, Tanrım!*

Cəmiyyətdə qaydasızlıq, özbaşınalıq, haqqı görməzliklər Avdı Qoşqarı "Qaydasız oyunlar" şeirini yazmağa vadar edib. Burada müəllif mövzunu çox şaxələrdə elə məharətlə işləyib ki... Əli Rza müəllimin də mövzunun içərisində istənilən gedişlər etməyə imkanı olub.

*Bilinməz o qədər sirləri var ki,*
*"Bilinən qaydalar" yerimir daha...*
*Burda qaydaları ötkəmlər yazır,*
*Qələmə düşənlər qalıb Allaha...*

Müəllif Avdı Qoşqarın şeirlərindəki təhtəlşüur üsyandan, inqilabi ruhdan danışarkən içində belə bir sual da yaranır: hərgah *"Nəsimi bu günümüzdə boy göstərə bilsəydi, onun mübarizə motivi necə olardı, kimə qarşı vuruşardı?".* Xələfli Avdını haqsızın haqqını dananların "kov deyil" ədalətsizliyinə üsyanını, Nəsiminin günümüzdə səsi kimi qəbul edərək, fikrin barizliyini belə bir yanaşma ilə aydın şəkildə əks etdirir: *"Avdı Qoşqarın poeziyasındakı çılpaq həqiqətlər açıq-aşkar deyir ki, mən heç də Nəsimi həqiqətindən uzaqda deyiləm. Əgər Nəsimi yığın-yığın insan mənəviyyatının, azadlığının qəddarlığına qarşı bircə cismi və canı ilə dura bilirdisə, deməli, bu zamankı Nəsimi övladının da canı və cismi elə həmin gücdə ola bilər".* Avdıdan gətirdiyi poetik nümunələr də elə bu fikrə köklənib. Həyatımızın bütün sahələrində baş verən *"qaydasız oyunlar"ın* xalqa, millətə dəyən zərbəsi də ağır olur, çünki belədə cəmiyyətin, dünyanın nizamı pozulur. Əli Rza Xələflinin təqdim və təhlillərindən aydın olur ki, Avdı Qoşqar bir vətəndaş şair kimi bunların ağrısını ruhunda çəkir, amma başının hayında qalmaq haqqında düşünmək belə istəmir. Bu düşüncənin ifadəsində tənqidçi göstərir ki, şairin fikirlərinin məcmusu olan səslə sözün rəngi bir harmoniya yaradır. Bu poetik nümunənin təhlil-tədqiqində müəllif açıqca yeriyən ədalətsizliyə qarşı şairin üsyankar səsinə diqqəti yönəldir.

Hər hansı bir tarixdə yaranmış şeirlər, təbii ki, ovqatın məhsuludur. Tədqiqatçı da bu əsərləri təhlil edərkən şairin ovqatına söykənir. Əslində, şairin ovqatı zamanın, mühitin ovqatıdır. Əli Rza müəllim də öz növbəsində zamanın, ovqatın şeirlərini sanki yoğurur, bu proseslərin içərisində dövr edən hadisələr, bülöv daşının ağzında itilənmiş kəsərli sözlər qəlbimizə sancılır, həm də oxucu üçün həzmini-dərkini asanlaşdırır. Şairin bir sözünü, misrasını oxuması kifayətdir ki, Əli Rza Xələfli o şeiri məqamındaca ən yeni prizmadan təhlilə cəlb etsin. Burada Avdı Qoşqar poeziyasının xarakterik cizgiləri, bədii fikir detalları, daxili yanğıları, ictimai-bəşəri motivinin bəzi məqamları fikir dühalarının yanmaq eşqilə tam məntiqi bir bağlılıqla müqayisə olunur. Ə.Xələfli sözünün bir məqamında, "Avdı Qoşqar hansı əzabı çəkir" deyə, ortaya belə bir sual çıxarır və özü də sualını cavablandırır: *"Başını qoltuq altına verməməyin əzabını". Mətləb də, təhlil də aydındır...*

Əli Rza Xələflinın Avdı Qoşqara həsr etdiyi şeirləri də var, bu poetik nümunələri oxuduqca bir cazibə sardı məni, duydum ki, burada müəllifin şeirlərində görüb-eşitdiyim səsləri, rəngləri düşüncəmdə yoğurub həzm halına gətirməsəm, bu cazibədən qopa bilməyəcəyəm. Müəllifin nağıl dili ilə dediyi: *Göy üzündə bir səs vardı, dolanırdı yeri, göyü. Səs içindən səs baxardı, yandırardı, yaxardı...* Əslində bunlar Avdı Qoşqarın ömür yazısının, ədəbi taleyinin güzgüdə əksidi. Deyir, bir uşaq dünyaya gəldi, amma yerdə yox, göydə! - Göylərdə doğulmaq da ki Tanrının böyük şərafətinə layiq olan, göylərə yaraşan, ruhunda gələn İlahi eşqlə işıq timsalında gözə görünənə nəsib olur. - Bəs bu səsin, rəngin sehri nədədir? Bunu elə özü də göy adamı, ruh adamı olan Əli Rza Xələfli görün necə nəql edir: *Bəlkə o səs taledi, bəxtdi, Dolanan gərdişdi... Bəlkə bitməyən arzudu, diləkdi; Bəlkə saf toxumdu, dəndi...* Burada sözün minbir çaları ilə düşüncədə sayrışan, qəlbi duyğulandıran rənglər sanki dünyaya doğulan Allah adamının taleyinə güzgü tutur. Kimdi, nə qüdrətin sahibidi bu yeni insan?! *"Saf toxumdu, dəndi", bir atanın qanına qarışaraq ananın bətninə düşür. Bu dən adi dən deyil, özü də yerdə deyil, göy üzündə bitir, doğulur.*

Düşünülər ki, göydə doğulan adi insan olmaz, olsa-olsa, İsa olar, ya Məhəmməd. Müəllif bircə anda yaranan bu mifi elə anındaca dağıdır. Bizə görə də nə doğan, nə də doğulmayan, hər şeyi görən, eşidən, bilən Qüdrət, Fəzilət sahibi onu ondan ötrü göy üzündə göyərtdi ki, səsi-sözü ilə yer adamlarının milli şüurunu oyatsın. Doğulanın da kim olacağı, hansı taleni yaşayacağı tək olanın özünə aid idi. Elə bu səbəbdən də onu qorudu, nəyi məsləhət bildisə, onu da ruhuna bəxş etdi, heç nəyi ondan əsirgəmədi... Bunlar Əli Rzanın göy dilində yazdıqlarının yer dilində açmasından aldığım təəssüratdır. Burada bir həqiqət mənə gün kimi aydındı: Avdı Qoşqarın şeirləri göylərin paklığından doğulmasaydı, göylər şairi, nağılçısı Əli Rza Xələfli də o taleyin rənglərini sözünün fırçası ilə belə bir qüdrətdə çəkə bilməzdi!

Əli Rza Xələflinin təhlillərində (xüsusən də milli faciələrin, vətən nisgilinin gətirdiyi bəlaların, insanlığa qarşı fiziki-mənəvi terrorun baş alıb getdiyi hadisələrə münasibətində) bir yanğı var, ürək-qəlb yanğısı. Bunun bir ucu Avdı Qoşqarın yaradıcılığının təbiəti ilə bağlıdırsa, o biri ucu da Əli Rzaya vəhy kimi gələn qanadlı təsvirlər, dərindən dərketmələrdir. O, şairin şeirlərində unikal məqamları məharətlə tutub onları təhlil-tədqiqi süzgəcindən keçirir. Çəmən çiçəklərinin ətrindən, rəngindən xarakterinə uyğun olanları seçib obrazın içinə-çölünə uyğun olanını nəqşləyib. Zənnimcə, Əli Rza Xələflinin də, Avdı Qoşqarın da sözlərinin qanadı var. Odur ki, əsərlərində ifadə olunan fikir-düşüncə məhvərindən çıxan təki şüurlara üz tutur, göyün üzünə pərvazlanır. Pak olan Göy üzü də çirkinliyi, yalanı, saxtanı qəbul etmir. Mən bu iki sənətkarın əsərlərindən nümunələrə göz yetirdikcə onların yaradıcılığında nə qədər bənzərliyi (əsasən həqiqət axtarışları ilə!) müşahidə etdim. Bu səmimi dostluğun, ədəbi-əbədi qardaşlığın mayasında məhz fikir-ruh qohumluğu dayanır. Belə olmasaydı, Avdı Qoşqarın yaradıcılığı Əli Rza Xələflini maqnit kimi özünə çəkərdimi...




Əli Rza Xələflinin deməsinə görə, Avdı Qoşqar yaradıcılığının özündə də bir orijinallıq, qeyri-standartlıq var. Bu, əslində onun özünəməxsus olan və oxucuya xoş gələn standartdı... Bu, qeyri-standartlığı Əli Rza Xələflinin də yaradıcılığında görmüşəm. Özünü ədəbiyyata, onun müxtəlif növ və janrında yazdığı əsərlərə həsr edən Söz sahibinin "Ruhun daşqını" da ədəbi xəzinənin bir özgə sanbalda, dəyərdə olan incisidir... Bu əsərdə Avdı Qoşqarın hansı şeiri təhlilə cəlb olunubsa, hamısına ciddi, əhatəli, obrazlı, özünəxas yanaşılıb. "Ruhun daşqını" iki şairin, ədəbiyyat adamının mənəvi daşqınları ilə məni heyrətdə qoydu. Bu heyrəti qədərincə bildirə, aça bildimmi... deyə bilmərəm. Amma bütün sözlərimin səmimiyyətdən, həqiqi sənətə, ədəbiyyata bağlılığımdan, ehtiramımdan qaynaqlandığı apaydındı... Bunu yəqin özünüz də hiss etdiniz...

**Şəfəq NASİR,**
**"Respublika".**